# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI
## Q Ə R A R
## № 10

**Bakı şəhəri** **12 oktyabr 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Vüsal Vaqif oğlu Dolxanovun Füzuli Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il sentyabr ayının 26-da keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Dolxanov Vüsal Vaqif oğlu Füzuli Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il may ayının 1-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il sentyabr ayının 26-da Dövlət Statistika Komitəsi aparatının Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Mir-Firdovsi Talıbov və müstəqil ekspert Zöhrab İbrahimovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Dolxanov Vüsal Vaqif oğluna müsahibə komissiyasının üzvlərindən R.Allahverdiyev 13 bal, M.Talıbov 14 bal, Z.İbrahimov 14 bal vermiş və nəticədə iştirakçı 13,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 27.09.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Dolxanov Vüsal Vaqif oğlunun 27 sentyabr 2023-cü il tarixli apellyasiya şikayəti təmin edilməsin və Füzuli Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il sentyabr ayının 26-da keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsi qüvvədə saxlanılsın.

2. Apellyasiya Şurasının Katibliyi Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi — SƏNƏDLƏR ÜÇÜN

Əslə ilə düzdür: